# Azərbaycan-Çin strateji tərəfdaşlığı - Avrasiyada iqtisadi sabitliyə və inkişafa xidmət edən əməkdaşlıq

**Son dövrlər Azərbaycanla Çin arasında iqtisadi əlaqələr sürətlə genişlənir. Bu yöndə Strateji Tərəfdaşlıq Bəyannaməsinin imzalanması mühüm rol oynayır.**



Məlumat üçün bildirək ki, hazırda Çin ölkəmizlə xarici ticarətdə ixrac üzrə 4-cü, idxal üzrə isə 1-ci yerdədir. Bununla belə, perspektivlərdən tam istifadə olunduğunu demək hələ tezdir.

Prezident İlham Əliyev Davosda Çinin CGTN kanalına verdiyi müsahibəsində iki ölkə arasında siyasi və iqtisadi əlaqələrin mövcud vəziyyəti ilə yanaşı, perspektivlərdən də danışmışdır. Bu perspektivlərə investisiya, innovativ texnologiyalar, xüsusən "yaşıl enerji" sahəsində geniş əməkdaşlıq imkanları daxildir. Ən önəmlisi isə odur ki, hər iki tərəf bu sahələr üzrə əməkdaşlığın genişlənməsinə böyük maraq göstərir.

Dövlət başçısı sözügedən müsahibədə vurğulamışdır ki, "yaşıl enerji" layihəsinin icrasında Azərbaycan şirkətləri Çinin texnologiyalarından istifadə edirlər. Ölkəmizdə günəş və külək enerjisinin istehsalının 2027-ci ildə 2 giqavat həcminə çatdırılmasının nəzərdə tutulduğunu deyən Prezident İlham Əliyev 2030-cu ildə bu rəqəmin 6 giqavata çatdırılacağını diqqətə çatdırmışdır. O da qeyd olunmuşdur ki, Azərbaycan bu sahədə Çin investisiyalarından və texnologiyalarından istifadəyə üstünlük vermək niyyətindədir.

Bu gün Çinlə Azərbaycanın əsas əməkdaşlıq etdiyi sahə həmçinin Orta dəhlizdir. Orta dəhlizin hər iki ölkə üçün strateji əhəmiyyəti var. Bu sahədə Çinlə Azərbaycan rəsmilərinin tez-tez görüşüb müzakirələr aparmalarının səbəbi də bunu təsdiq edir. Hədəf beynəlxalq əhəmiyyətli bu ticarət dəhlizinin tranzit imkanlarını daha da genişləndirməkdir.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) Şərqi Asiya üzrə eksperti Vüsal Quliyev deyir: "2024-cü ildə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi iki ölkə arasında daha sıx inteqrasiyanın formalaşmasına zəmin yaratdı. Hazırda bu strateji tərəfdaşlıq iqtisadi və ticarət əlaqələrindən başlayaraq enerji, nəqliyyat-kommunikasiya sahələrinə, eləcə də yeni nəsil texnologiyalar və rəqəmsal infrastrukturun inkişafına qədər geniş sahələri əhatə edir".

Vüsal Quliyev iki dövlət arasında qarşıdakı dövrdə yeni əməkdaşlıq imkanlarının yaranacağına da əmindir: "Azərbaycanın iqtisadi siyasətinin əsas istiqamətlərindən biri də xarici sərmayə axınını təşviq etməkdir. O cümlədən Çin mənşəli şirkətlərin iri investisiya və texnologiya layihələrində iştirakı üçün optimal şərait yaradılır. Hazırda Çinin Azərbaycanla alternativ enerji mənbələri üzrə əməkdaşlıqlar qurması üçün geniş imkanlar mövcuddur".

Mütəxəssisin fikrincə, beynəlxalq nəqliyyat və logistika sahəsindəki əməkdaşlıq iki ölkə arasında strateji istiqamətlərdə ən önəmli sahəyə çevrilir. Orta dəhliz Azərbaycan-Çin strateji tərəfdaşlığında vacib rol oynayır. Şərqi Avropada baş verən hərbi münaqişə və gərgin geosiyasi mənzərə fonunda Çin mənşəli məhsulların Avropa bazarlarına təhlükəsiz və sürətli nəqli üçün alternativ və etibarlı tranzit yolu kimi Orta dəhlizin əhəmiyyəti günbəgün artmaqdadır. İkitərəfli güclü diplomatik və kommersiya əlaqələrinin formalaşması bu çoxmodullu beynəlxalq qatar-bərə yolunun özünü iqtisadi və siyasi cəhətdən doğrultması baxımından önəmlidir.

Ekspert həmçinin qeyd edir ki, Orta dəhlizin optimallaşdırılması və ötürücülük potensialının artırılması Azərbaycan üçün yalnız tranzit gəlirlərinin artması kimi deyil, eyni zamanda beynəlxalq ticarətdə strateji mövqeyinin gücləndirilməsi, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və regional inteqrasiyanın dərinləşməsi baxımından mühüm əhəmiyyət kəsb edir. V.Quliyev deyir: "Azərbaycan Orta dəhliz vasitəsilə Çinin Avropaya çıxışını təmin edən ən vacib ölkələrdən birinə çevrilib. Bu yol həmçinin marşruta daxil olan digər dövlətlər üçün də iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, Azərbaycan Orta dəhlizin tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu, eləcə də Bakı limanı kimi quru və dəniz əsaslı fiziki və rəqəmsal infrastruktur layihələri vasitəsilə regional logistik qovşaq kimi mövqeyini daha da möhkəmləndirir".

"Bu əməkdaşlıqlar Orta dəhlizin inkişaf perspektivlərini genişləndirə və onun səmərəli nəqliyyat şəbəkəsinə çevrilməsinə töhfə verə bilər. Bütövlükdə, Azərbaycan-Çin strateji tərəfdaşlığı iki ölkənin milli maraqları ilə yanaşı, Avrasiya regionunda iqtisadi sabitliyin və inkişafın təmin edilməsinə töhfə vermə potensialına malikdir", - deyə ekspert bildirib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 19 fevral (№ 37).- S.13.